**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SARI AŞIĞIN POETİK İRSİ VƏ ƏDƏBİ OBRAZI

İxtisas: 5719.01- Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Könül Surxay qızı Məmmədova**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Məhərrəm Paşa oğlu Qasımlı**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Yeganə Nəhmətulla qızı İsmayılova**

filologiya elmləri doktoru, dosent
**Qalib Əmirağa oğlu Sayılov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Qüdrət Umud oğlu Umudov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ______________ filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: ______________ filologiya üzrə fəlsəfə doktoru
**Nizami Şamil oğlu Adışirinov**

Elmi seminarın sədri: ______________ filologiya elmləri doktoru, professor
**Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər hansı xalqın mədəni-mənəvi inkişafı və yüksəlişinin əsasında duran amillərdən biri onun keçmiş ədəbi irsidir. Həmin xalqın milli-tarixi yaddaşının və mənəvi dəyərlərinin formalaşmasında əsas rolu ədəbiyyat və incəsənət nümunələrinin vacib keyfiyyətləri yerinə yetirməkdədir. Bu səbəbdən sözügedən dəyərlərin dərindən və hərtərəfli tədqiq olunması, keçmiş ədəbi-mədəni ənənələrin müasir cəmiyyət üçün əhəmiyyətli cəhətlərinin öyrənilməsi olduqca vacib və aktualdır.

Azərbaycan xalqının keçmiş mədəni irsinin çağdaş əhəmiyyəti və rolunu Ümummilli liderimiz Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması ilə bağlı məşhur bəyanatında ayrıca vurğulayırdı: "*Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik*"[1].

Ümummilli liderin Azərbaycan mədəniyyətinin inkişafı və yüksəlişi üçün müəyyənləşdirdiyi əsas istiqamətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı qanunlar, fərmanlar və sərəncamlar ilə layiqincə davam etdirilməkdədir[2].

Məhz belə hərtərəfli qayğı və diqqətin nəticəsində Azərbaycan mədəniyyətinin bir çox uğurlarının dünya miqyasında etiraf olunması və beynəlxalq əhəmiyyət kəsb etməsi tədqiqatçı alimlərin qarşısına yeni-yeni vəzifələr qoyur. Bu uğurlar sırasında Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və ciddi

---

[1] Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı // Ədəbiyyat qəzeti. – 2001, 17 avqust. – s.1.

[2] Prezident İlham Əliyev və mədəniyyət: [2 cilddə]. – Bakı: AR Mədəniyyət və Turizm Nazirliyi, – 2018. – c.2. – 440 s.

səyləri ilə 2009-cu ildə aşıq sənətinin YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi aşıq ədəbiyyatının əsas simalarının həyat və yaradıcılığını, eləcə də, xalq şeiri şəkillərinin poetikasını dərindən və hərtərəfli tədqiq etmək vəzifəsini daha da aktuallaşdırır[3].

Azərbaycan aşıq ədəbiyyatını öz yaradıcılığı ilə yüksək səviyyədə təmsil edən XVII əsrin böyük el sənətkarlarından biri kimi Sarı Aşığın poetik irsinin, eləcə də, Azərbaycan folklorundakı bədii obrazının çağdaş elmi tələblər və yanaşmalar əsasında hərtərəfli tədqiqi və təhlili, hər şeydən öncə, yuxarıda aktuallığı vurğulanan mühüm vəzifədən və zərurətdən irəli gəlir.

Sarı Aşığın poetik irsi və ədəbi obrazının monoqrafik planda tədqiqinin aktuallığı, əsasən, aşağıdakı amillərlə şərtlənir:

~ Sarı Aşığın folklor örtüyünə bürünmüş həyatı və bədii irsinin Azərbaycan folklorşünaslıq elminin müasir səviyyəsinin verdiyi nəzəri-metodoloji imkanlar çərçivəsində yenidən araşdırılmasına ehtiyacın yaranması;

~ Sənətkarın Sarı Aşığın tarixi və ədəbi kimliyi ilə bağlı qaynaqların müasir elmi yanaşma və üsullarla yenidən dəyərləndirilməsi zərurətin meydana çıxması;

~ Sarı Aşığın əsrlər boyunca xalq yaradıcılığı ilə qarışmış bədii irsinin ədəbi-estetik sərhədləri və janr-poetik hüdudlarının müəyyənləşdirilməsi aktuallığının ortaya çıxması;

~ Sarı Aşıq bayatılarında onun müəllif kimliyinə xas olan ideya-estetik xüsusiyyətləri və obrazlar sisteminin öyrənilməsi zərurəti;

~ Sənətkarın cinasyaratma texnologiyasının bədii-estetik və funksional-poetik özünəməxsusluğunun tədqiq aktuallığı qazanması;

~ Epik ənənədəki rəvayət və hekayətlərdə mövcud olan Sarı Aşıq obraz-variantlarına "folklor və gerçəklik" baxımından yanaşma zərurətinin meydana çıxması;

~ "Yaxşı və Aşıq" dastanının janr özünəməxsusluğu və bədii xüsusiyyətlərinin "ədəbi bioqrafiya" kontekstində təhlilə cəlb

[3] Mehriban Əliyeva – Azərbaycan mədəniyyətinin hamisi. – Bakı: Şərq-Qərb, – 2018. – 208 s.

olunması aktuallığının yaranması və s.

*Mövzunun işlənmə dərəcəsinə* barəsində qeyd etməliyik ki, Sarı Aşığın həyat və yaradıcılığı indiyə qədər monoqrafik səpkidə xüsusi tədqiqat obyektinə cəlb olunmasa da, Azərbaycan folklorşünaslığında ustad aşığın poetik irsi və ədəbi mühiti ilə bağlı bir sıra işlər görülmüşdür. Onları əsasən dörd qrup ətrafında aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

Birinci qrupa Sarı Aşığın müxtəlif illərdə Salman Mümtaz, Bəhlul Behcət, Əhliman Axundov, Vəli Nəbioğlu, Muxtar Kazımoğlu, Əfzələddin Əsgər, Hüseyn Kürdoğlu, İlkin Rüstəmzadə, Ləman Vaqifqızı (Süleymanova), İlham Qəhrəman və başqaları tərəfindən toplanıb nəşr olunmuş şeirlərinə yazılan ön sözlər və izahlardakı fikir və mülahizələr daxildir[4]. Bunların arasında Sarı Aşığın həyatı və yaradıcılığının bəzi tərəflərinə ciddi elmi münasibət nöqteyi-nəzərindən Bəhlul Behcətin və Hüseyn Kürdoğlunun təhlil və dəyərləndirmələri daha diqqətəlayiqdir.

İkinci qrupa Həmid Araslı, Vaqif Vəliyev, Mürsəl Həkimov, Paşa Əfəndiyev, Məhərrəm Qasımlı, Səbahəddin Rüstəmov, Sədnik Paşa Pirsultanlı, Ləman Vaqifqızı (Süleymanova) və başqa tədqiqatçıların yenə də müxtəlif illərdə Sarı Aşıq poeziyası haqqındakı məqalə və tədqiqatları aiddir[5].

---

[4] Axundov, Ə. Sarı Aşıq haqqında rəvayətlər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – Bakı: 1968. – 3-cü kitab. – s.177-193; Behcət, B. Aşıq təxəllüslü bayatı şairinin tərcümeyi-halı // Ədəbiyyat qəzeti. –1936, 24 mart. – s.3.; Behcət, B. Sarı Aşıq // Ədəbiyyat qəzeti. – 1936, 29 fevral. –s.3; Behcət, B. Sarı Aşığın bayatıları / transliterasiya və ön sözün müəllifi R. Xəlilov. – Bakı: Səda, – 2006. – 98 s.; Kürdoğlu, H. "Aşıq və Yaxşı" poeması // Seçilmiş əsərləri: [2 cilddə]. – Bakı: Sabah, – c.1. – 2011. – s.447-504; Mümtaz, S. Azərbaycan ədəbiyyatı. Aşıq Abdulla / S.Mümtaz. – Bakı: Azərnəşr, – 1927. – 72 s.; Mümtaz, S. Aşıq Abdulla // Azərbaycan ədəbiyyatının qaynaqları. – Bakı: Yazıçı, – 1986. – 446 s.; Mümtaz, S. Sarı Aşıq və bayatıları / S.Mümtaz. – Bakı: Azərnəşr, – 1935. – 213 s.; Qəhrəman, İ. Aşıq eldə bir dindir: [Elektron resurs] // URL: // https://türkinfo.org/2016/02/03

[5] Araslı, H. Aşıq yaradıcılığı / H.Araslı. – Bakı: Azərnəşr, – 1960. – 136 s.; Araslı, H. Sarı Aşıq haqqında // Ədəbiyyat qəzeti. – 1936, 15 may. – s.4; El şairləri / toplayıb tərtib edəni S. Mümtaz. – I kitab. – Bakı: Azərnəşr, – 1935. – 370 s.; El şairləri / toplayıb tərtib edəni S.Mümtaz. – II kitab. – Bakı: Azərnəşr, – 1935. – 484 s.; Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. – Bakı: Maarif, – 1981. – 401 s.; Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. –

Üçüncü qrup Azərbaycan ədəbiyyatı tarixinə dair akademik nəşrlərdə və Azərbaycan şifahi xalq ədəbiyyatına dair dərsliklərdə Sarı Aşığın həyat və yaradıcılığı haqqındakı elmi oçerkləri əhatə edir[6].

---

Bakı: Maarif, – 1992. – 478 s.; Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. – Bakı: Maarif, – 2013. – 600 s.; Həkimov, M. Aşıq şeir növləri / M.Həkimov. – Bakı: APİ, – 1987. – 80 s.; Həkimov, M. Aşıq şeir şəkilləri və qaynaqları / M.Həkimov. – Bakı: Maarif, – 1999. – 376 s.; Həkimov, M. Bayatılar / M.Həkimov. – Bakı: APİ, – 1991. – 102 s.; Qasımlı, M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri / M.Qasımlı, M.Allahmanlı – Bakı: Elm və təhsil, – 2018. – 220 s.; Qasımlı, M. Azərbaycan aşıq ədəbiyyatı / M.Qasımlı. – Bakı: Şərq-Qərb, – 2019. – 200 s.; Qasımlı, M. Bayatılarımızın heyrət heykəli – Sarı Aşıq // Ədəbiyyat qəzeti. – 2015, 5 sentyabr. – s.20-21; Qasımlı, M. Folklor və ədəbiyyat araşdırmaları / M.Qasımlı. – I kitab. – Bakı: Elm və təhsil, – 2017. – 628 s.; Qasımlı, M. Ozan-aşıq sənəti / M.Qasımlı. – Bakı: Uğur, – 2011. – 304 s.; Qasımlı, M. Sarı Aşıq // Azərbaycan ədəbiyyatı tarixi: [6 cilddə]. –Bakı: Elm, – 2004. – c.1. – s.556-563; Paşayev, S. Azərbaycan eposunun əfsanə qaynaqları / S.Paşayev. – Bakı: Azərnəşr, – 2002. – 311 s.; Paşayev, S. Xalq poeziyasında Sarı Aşıq ənənələri // Kirovabad kommunisti. – 1983, 29 sentyabr. – s.3.; Paşayev, S. “Lələ əfsanəsi” və Sarı Aşıq // Yüksəliş. – 1972, 18 may. – s.1.; Paşayev S. Sarı Aşıq // – Bakı: Elm və həyat, – 1984. № 4; Paşayev, S. Sarı Aşıq və “Yaxşı- Yaman” dastanı // “Azərbaycan dili və ədəbiyyatı tədrisi” metodik məqalələr məcmuəsi. “Azərbaycan məktəbi” jurnalına əlavə. – Bakı: № 4 (88), – 1975. – s. 99-107; Paşayev, S. Sarı Aşığın bayatı-bağlamaları haqqında // Yüksəliş. – 1970, 17-26 dekabr. – s.1-2; Paşayev, S. Sarı Aşığın cinaslı bayatıları // Azərbaycan müəllimi. – 1983, 10 avqust. – s.2; Paşayev, S. Ümmandan incilər: Sarı Aşığın bayatı bağlamaları // Sovet kəndi. – 1983, 17 dekabr. – s.1; Paşayeva, S. Sarı Aşıqla bağlı rəvayətlər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – XVIII cild. – Bakı: Səda, – 2005. – s.112-117; Pirsultanlı, S.P. Azərbaycan folkloruna dair tədqiqlər / S.Pirsultanlı. – Gəncə: Pirsultan, – 2006. – s.243-248; Pirsultanlı, S.P. Bayatı yaradıcısı Lələ və Sarı Aşıq (Birinci yazı) // Xalq cəbhəsi. – 2017, 30 avqust. – s. 14.; Rüstəmov, S. Sarı Aşıq // – Bakı: Azərbaycan dili və ədəbiyyat tədrisi məcmuəsi, – 1973. №4, – s. 80-89.; Rüstəmov, S. Sarı Aşıq və Yaxşı // Bakı: Elm və həyat jurnalı, –1970. №12, – s. 30; Vaqifqızı (Süleymanova), L. Sarı Aşığın bayatıları. Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti Beynəlxalq Elmi Konfransın materialları. Bakı şəhəri, 24-25 may, 2021-ci il, səh.287-294

[6] Aşıqlar / toplayıb tərtib edəni H. Əlizadə. – Bakı: Azərnəşr, – 1938. – 490 s.; Aşıqlar / tərtib edəni Ə.Axundov. – Bakı: Xalq yaradıcılığı evi, – 1960. – 184 s.; Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə]. – Bakı: Elm, – 1960. – c.1. – 589 s.; Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə]. – Bakı: Elm, – 2019. – c.1. – 1070 s.; Azərbaycan xalq dastanları: [2 cilddə] / tərtib edəni Ə. Axundov. – Bakı: Azərnəşr, – 1961. – c.1. – 354 s.; Azərbaycan xalq dastanları: [2 cilddə] / tərtib edəni Ə. Axundov. – Bakı: Azərnəşr, – 1961. – c.2. – 304 s.; Azərbaycan xalq

Dördüncü qrup isə XX əsr Azərbaycan ədəbiyyatşünaslığı, folklorşünaslığı və publistikasının müxtəlif nəsillərə mənsub nümayəndələrinin cürbəcür tədqiqatların tərkibində, yaxud kütləvi qəzet-jurnal məqalələrində bu və ya digər münasibətlə Sarı Aşıq şəxsiyyəti və poeziyası ilə bağlı fikirlərini çevrələyir[7]. Bu qrupların

---

dastanları / toplayanı və tərtib edəni Ə. Axundov. – Bakı: Yazıçı, – 1983. – 252 s.; Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Xalq ədəbiyyatı. – Bakı: Elm, – 1982. – 510 s.; Azərbaycan məhəbbət dastanları / tərtib edənlər M.H. Təhmasib, T.Fərzəliyev, M. Seyidov. – Bakı: Elm, – 1979. – 502 s.; Eldarova, Ə. Azərbaycan aşıq sənəti / Ə.Eldarova. – Bakı: Elm, – 1996. – 168 s.; Həbibbəyli, İ. Azərbaycançılıq konsepsiyası // Ədəbiyyat qəzeti. – 2019, 13 iyul. – s.4-5; Seyidov M. Sarı Aşıq // – Bakı: Kənd həyatı, – 1986. №5, – s.46

[7] Abbaslı, İ. Folklorşünaslıq axtarışları: [2cilddə] / İ.Abbaslı. – Bakı: Nurlan, – c.2. – 2009. – 512s.; Adıgözəlova, Ş. Şifahi xalq ədəbiyyatı nümunələrində tərbiyə məsələləri (XVII-XVIII əsrlər) // – Bakı: Pedaqoji Universitet Xəbərləri, Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, – 2012. №3, – s. 277-281.; Ağayar, Ş. Ən bədbəxt söz adamı // – Bakı: "Ozan dünyası" toplusu, – 2012. №1, – s.68-69; Eloğlu, S. Zəngəzur hadisələri / S.Eloğlu. – Bakı: Azərnəşr, – 1992. – 60 s.; Əfsanələşmiş aşiq – Sarı Aşıq // Azadlıq. – 2013, 16 avqust. – s.14; Əsgərli, Z. Poetika: izahlı sözlük / Z.Əsgərli. – Bakı: Elm, – 2014. – 262 s.; Həziyeva, Ş. Qars aşıq mühitinin Azərbaycan mədəniyyətindəki tarixi-kulturoloji yeri: / kulturologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. / – Bakı, 2011. – 26 s.; Hüseynzadə, T. Aşıq deyişmələrinin poetikası / T.Hüseynzadə. – Bakı: Gənclik, – 2017. – 312 s.; İbrahimli, T. Ay Aşıq // Kaspi. – 2011, 28-30 may. – s.16; Qasımlı, M. Sarı simin sehrində // Palitra. – 2013, 11 aprel. – s.13; Qayıbov, S. Xəstə Qasımın poetik irsi: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2011. – 145 s.; Qurbanova, T. Sarı Aşığın işığında // Kaspi. – 2011, 3 may. – s.11; Mehdizadə, X. Sarı Aşıq dastanı. Yazılmamış deyimlər // – Bakı: Azərbaycan jurnalı, – 2010. №9, – s.152-159; Məhərrəmova, T. "Mən aşiq ağla barı..." // Kaspi. – 2011, 27 iyul. – s.13; Mustafayeva, S. Zəngilan folklor mühitində bayatılar // – Bakı: Dədə Qorqud, – 2014. №4, – s. 70-76; Nazim Ə. Azərbaycan xalq ədəbiyyatından: bayatılar // Bakı: Maarif və mədəniyyət. – 1926. №7, – s. 53-54; Rahim, M. Məhəbbət dastanı (şeirlər və poemalar) / M.Rahim. – Bakı: Azərnəşr, – 1974. – 258 s.; Rzayeva, N. Lirik xalq mahnılarının poetikası: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2008. – 126 s.; Salmanov, R. Sarı Aşıq işığında // Xalq qəzeti. – 2011, 19 may. – s. 8; Sarı Aşıq. Ustadnamələr // Kaspi. – 2018, 6-8 oktyabr. – s. 20-21; Sarı Aşığa həsr olunmuş konsert // – Bakı: Ozan dünyası toplusu, – 2011. №2, – s. 111-112.; Sarı Aşığın cavablı və cavabsız tapmacaları // – Bakı: Qobustan toplusu, – 2012. №1, – s. 45; Uğur. Sarı Aşığın "Gül dəftəri" // Xalq cəbhəsi. – 2012, 31 yanvar. – s. 14; Vahid, T. Sarı Aşıq işığında // Mədəniyyət. – 2011, 4 may. – s. 11; Vahid, T. Sarı Aşığın bayatı dünyası: Haqq aşığı // Mədəniyyət. – 2011, 1 aprel. – s. 11.

hər birinə aid etdiyimiz bir sıra nümunələrdə Sarı Aşığın həyatı, mühiti və poetik irsinə dair qiymətli fikirlərə, eləcə də mübahisəli mülahizələrə biz işimizin müxtəlif fəsillərində yeri gəldikcə aydın münasibət bildirəcəyik. Bütövlükdə götürəndə isə görülmüş müəyyən işlərlə müqayisədə tədqiq olunmamış cəhətlər və məsələlər daha qabarıq nəzərə çarpır və Sarı Aşığın ədəbi mühitini, həyatını, poetik irsini və folklordakı bədii obrazını daha ətraflı və daha dərindən tədqiq etməyi zərurətə çevirir.

**Dissertasiya işinin obyekti və predmeti.** Tədqiqatın obyektini bütövlükdə Sarı Aşığın bədii təşkil edir. Sənətkarın xalq arasında məşhur olan yaradıcılığı zamanla mövcud poetik ənənə ilə qarışdığı üçün dissertasiyada Sarı Aşıq yaradıcı subyekti ilə hər hansı şəkildə əlaqələnən bütün mətnlər tədqiqata cəlb olunmuşdur. Araşdırmanın obyektinin digər bir qismini Sarı Aşıq haqqında xalq rəvayət və hekayətləri təşkil edir.

Dissertasiya işinin predmetində konkret olaraq Sari Aşığın poetik irsi və ədəbi obrazının tədqiqi problemi durur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Sarı Aşıq poetik irsinin və onun folklordakı obrazının köklü şəkildə araşdırılmasından ibarət olub, aşağıdakı vəzifələri və məsələləri əhatə edir:

–Sarı Aşığın həyat və yaradıcılığının, eləcə də, şifahi xalq ədəbiyyatında Sarı Aşıq obrazının öyrənilmə tarixini nəzərdən keçirmək;

–Sarı Aşığın nəsil-nəsəbi və doğum yeri ilə bağlı mübahisəli mətləblərə ətraflı münasibət bildirmək və həmin məsələlərə nisbətən aydınlıq gətirmək;

–Sarı Aşıq və Yaxşı münasibətlərinin real-tarixi səciyyəsini və Yaxşı obrazının Sarı Aşıq poeziyasındakı mühüm rolunu müəyyənləşdirmək;

–Sarı Aşıq poetik irsinin onun ədəbi-mədəni mühiti və ictimai-tarixi şəraiti ilə çoxcəhətli əlaqələrini araşdırmaq;

–Sarı Aşıq yaradıcılığının əsas qaynaqlarını və onların bir-biri ilə bağlılıqlarını üzə çıxarmaq;

– poeziyasının aparıcı janrı kimi Sarı Aşıq bayatılarının poetikasını və özünəməxsus tərəflərini işıqlandırmaq;

–Sarı Aşığın cinas sənətindəki misilsiz məharətini dərindən təhlil və tədqiq etmək;

–Sarı Aşıq bayatılarının el bayatıları ilə sərhədlərini müəyyənləşdirməkdə cinas sənətinin həlledici rolunu aydınlaşdırmaq;

–Sarı Aşıq haqqında xalq rəvayət və hekayətlərinin müqayisəli təhlilini vermək;

–"Yaxşı və Aşıq" dastan-hekayətinin janr özünəməxsusluğunu və əsas poetik məziyyətlərini aşkara çıxarmaq və s.

**Tədqiqatın metodları.** Nəzəri-metodoloji cəhətdən dissertasiyanın əsasında çağdaş ədəbiyyatşünaslıq və folklorşünaslıq elminin istinad etdiyi tarixi-müqayisəli metodun zəngin təcrübəsi dayanır. Bundan əlavə, müxtəlif məsələlərin işıqlandırılmasında, eləcə də, ayrı-ayrı poetik nümunələrin təhlilində görkəmli Azərbaycan ədəbiyyatşünasları və folklorşünaslarından H.Araslı, M.H.Təhmasib, M.Seyidov, İ.Həbibbəyli, A.Nəbiyev, S.Paşayev, Q.Namazov, N.Cəfərov, M.Kazımoğlu, K.Əliyev, M.Qasımlı, F.Bayat, Ə.Əsgər, M.Allahmanlı kimi alimlərin elmi-nəzəri təcrübəsindən istifadə olunmuşdur.

Keçmiş mədəni irsə və xalq yaradıcılığı incilərinə yeni və çağdaş yanaşmalar daha çox müstəqillik dövrü Azərbaycan folklorşünaslığı və ədəbiyyatşünaslığının elmi-nəzəri bazasına söykənir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Sarı Aşıqla bağlı təzkirə və mənqəbə səciyyəli əlyazmalarda, xalq rəvayətləri və dastanda, o cümlədən sənətkarın bayatılarında mövcud olan bilgilərin onun poetik irsinin və bioqrafiyasının tədqiqi ilə bağlı məsələlərin aydınlaşdırılmasında əhəmiyyətli rol oynadığını əsaslandırmaq;

– Sarı Aşığın folklorlaşmış şəxsi və ədəbi biqorafiyası ilə bağlı XX əsrdə görülmüş toplama və tədqiqat işlərinin, o cümlədən sənətkarın müstəqillik illərində poetik irsinin üzə çıxarılması və elmi dəyərləndirilməsinin aparılması ilə əlaqədar görülmüş işlərin rolu və əhəmiyyətini göstərmək;

– Sarı Aşıq yaradıcılığı ilə əlaqədar qaynaqların dissertasiyada yeni elmi naliyyətlər və yanaşmalar kontekstində ilk dəfə ciddi

şəkildə nəzərdən keçirildiyini təsbit etmək;

– Sənətkarın yaradıcılığında el-aşıq poeziyasının digər janrlarına məxsus olan nümunələrin (qoşma, təcnis, müxəmməs) ilk dəfə bu dissertasiya işində diqqət mərkəzinə gətirilməsini göstərmək;

– Sarı Aşıq haqqında olan folklorlaşmış bilgilərdən (rəvayətlər və hekayətlər) ustad aşığın şəxsiyyəti və həyatı ilə bağlı qaranlıq və mübahisəli məsələlərin aydınlaşdırılmasında yeni yanaşmalar zəminində istifadə imkanlarının olduğunu təsbit etmək;

– "Yaxşı və Aşıq" dastanın Azərbaycan folklorunda Sarı Aşıq obrazının yaşadılması və əbədiləşdirməsi baxımından rolunu vurğulamaq və s.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın, ilk növbədə, problemin bütöv və ciddi şəkildə ortaya qoyuluşu ilə nəzərə çarpan elmi yeniliyi konkret olaraq aşağıdakı müddəalarda öz ifadəsini tapır:

– Sarı Aşığın poetik irsi və folklordakı obrazı bir-biri ilə əlaqədə və sistemli şəkildə ilk dəfə tədqiqata cəlb olunmuşdur;

– Ustad aşığın həyatı, mühiti və yaradıcılığı ilə bağlı bir sıra qaranlıq və mübahisəli məqamlara ilk dəfə müəyyən mənada aydınlıq gətirilmişdir;

– Sarı Aşıq poeziyasında cinas sənətinin özünəməxsus yeri və rolu ilk dəfə elmi-nəzəri təsnifatlar səviyyəsində araşdırılmışdır;

– El bayatıları ilə Sarı Aşıq bayatılarının fərqli xüsusiyyətləri və poetik sərhədləri ilk dəfə nisbətən aydınlıq və konkretlik kəsb etmişdir;

– Bütövlükdə Sarı Aşıq poeziyasının ideya və obrazlar aləmi ilk dəfə sistemli işıqlandırılmışdır;

– Ustad aşıq haqqında xalq rəvayətləri və hekayətləri ilk dəfə ətraflı tədqiq olunmuşdur;

– "Yaxşı və Aşıq" dastan-hekayəti ilk dəfə olaraq hərtərəfli tədqiqə və təhlilə cəlb edilmişdir və s.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti, hər şeydən öncə, onun çağdaş Azərbaycan folklorşünaslığının elmi-nəzəri bazasına öz payını əlavə etməsi ilə müəyyənləşir. Belə ki, tədqiqatda Sarı Aşığın poetik irsi ciddi elmi-

nəzəri prinsiplər əsasında tədqiq olunaraq, bir sıra məsələlər üzrə yeni elmi-nəzəri təsnifatlar ortaya qoyulur. Xüsusən, Sarı Aşıq bayatılarındakı cinasların bir neçə cəhətdən təsnifatı yuxarıdakı fikrin tutarlı isbatı və aydın misalıdır.

El bayatıları ilə Sarı Aşıq bayatıları arasındakı fərqli cəhətlərin müəyyənləşdirilməsində cinas sənətinin ön plana çəkilməsi və onun aparıcı rolunun üzə çıxarılması da tədqiqatın elmi-nəzəri çəkisini artıran amillərdən biridir. Bu və bunun kimi nəzəri tərəfləri ilə dissertasiya təkcə Sarı Aşıq bayatılarının deyil, ümumən xalq şeirinin ən qədim və yayğın janrlarından biri olan bayatı poetikasının dərindən öyrənilməsinə də öz töhfəsini verməkdədir.

Tədqiqatın praktik əhəmiyyəti isə əsasən ondan ibarətdir ki, dissertasiyanın materiallarından ali məktəblərin filologiya fakültələrində tədris olunan "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Aşıq poeziyası", "Dastanşünaslıq", "Bayatışünaslıq" və sair kimi kurs və seminarlarda istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu Azərbaycan Universitetinin Elmi Şurasının 05 yanvar 2016-cı il (Protokol № 5) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının 17 yanvar 2019-cu il tarixli (Protokol №1) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (11986 işarə), I fəsil (89813 işarə), II fəsil (54758 işarə), III fəsil (54442 işarə), nəticə (4308 işarə) və ədəbiyyat sıyahısından (194 ədəbiyyat) ibarət olmaqla, ümumi həcmi (216887 işarə) işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, obyekti və predmeti, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan başlıca müddəalar göstərilmiş, elmi yenilikləri sadalanmış, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və tətbiqi, eləcə də həcm göstəriciləri barəsində məlumatlar verilmişdir.

**Dissertasiya işinin "Sarı Aşığın folklorlaşan həyatı və poetik irsinin mənzərəsi" adlanan birinci fəslində** sənətkarın tarixi kimliyi ilə bağlı mənbələr, bədii irsinin toplanma-nəşr məsələləri, yaradıcılığının bədii əhatəsi kimi məsələlərdən bəhs olunur.

*Birinci fəslin "Sarı Aşığın tarixi kimliyini təsbit edən qaynaqlar və poetik irsinin toplanması, nəşri təcrübəsi" adlanan birinci paraqrafında* qeyd olunur ki, Sarı Aşığın həyatı və yaradıcılığı ən az öyrənilən sahələrdən sayılır. Sənətkarın həyatı, doğum yeri və məskun olduğu tarixi mahal haqqında az-çox məlumat verən ilk yazılı mənbə XIX əsrin məşhur təzkirəçisi H.Qaradağinin "Təzkireyi-Qaradaği" əsəridir. Qaradağı yazır: "*Sarı Aşıq Qaradağ mahalındandır. Çox qədim vaxtlarda gəlib Qaradağın Zəngəzur mahalında Həkəri çayının kənarında vaqe Güləbürt adlı qəryədə sükna edib*"[8]. Azərbaycan folklorşünaslığında ustad aşığın məskunlaşdığı kənd ilə bağlı nisbətən fikir eyniliyi üstünlük təşkil etsə də, onun əslən harada doğulduğu haqqında fikir ayrılıqları və ciddi mübahisələr mövcuddur. Bu mübahisələr 1936-cı ildə Ədəbiyyat qəzetində "Sarı Aşıq" və "Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı və yaradıcılığı" məqalələrinin müəllifi folklorçu Bəhlul Behcətin mülahizələrindən başlayır[9]. Mənbəşünas və tarixçi olan Bəhlul Behcət əslən özü də Zəngəzur mahalından olduğu üçün və həmin mahalda Sarı Aşıqla bağlı xeyli folklor materialı və bilgi əldə etdiyi üçün mülahizələrinin gerçəyə daha yaxın olduğu qənaətindədir.

---

[8] Qaradaği, Ə. Təzkireyi-Qaradaği. – RƏF, – № 7602, – s. 7-10

[9] Behcət, B. Aşıq təxəllüslü bayatı şairinin tərcümeyi-halı // Ədəbiyyat qəzeti. –1936, 24 mart. – s.3.; Behcət, B. Sarı Aşıq // Ədəbiyyat qəzeti. – 1936, 29 fevral. –s.3

Ə.Axundovun yorumunda Qaramanlı Sarı Aşığın doğulduğu Güləbürtə yaxın kənd adı mənasında (Türkiyə ərazisindəki vilayət adından fərqli olaraq) işlədilir:

*Aşıq Qaramanlıdı,*
*Xalın qara manlıdı.*
*Yaxşının tənəsindən*
*Genə qar amanlıdı*[10].

Bu və buna bənzər çoxsaylı fikirlərdən göründüyü kimi, Sarı Aşığın əslən harada doğulduğu ilə bağlı mübahisələr öz başlanğıcını əsasən Salman Mümtazla Bəhlul Behcətin həmin məsələdəki fərqli mövqelərindən götürür. Sonrakı tədqiqatçı və toplayıcıların bir qismi Salman Mümtazın, bir qismi Bəhlul Behcətin mülahizələrinə tərəfdar çıxırsa, bəzi folklorşünaslar da daha təmkinli mövqe nümayiş etdirərək, bu barədə açıq mövqe bildirmirlər.

Fikrimizcə, bütün faktlara, cizgilərə dərin məntiqlə və tarixi ardıcıllıqla yanaşılsa, Sarı Aşığın da mənsub olduğu köçün (dəstənin, tayfanın, oymağın və s.) müəyyən tarixi hadisələrin təsirində və təqiblərin nəticəsində əvvəlcə Qaraman vilayətindən Qaradağ mahalına, sonra da nədənsə, orada çox qərar tutmadan Qaradağ mahalından Zəngəzur mahalına gəlməsi, məskunlaşdığı yeni kəndlərə köçüb gəldiyi yerlərin adlarını, yəni Qaramanlı, Qaradağlı adlarını verməsi ehtimalı daha böyükdür.

Ümumiyyətlə birinci paraqrafda Sarı Aşığın tarixi kimliyi, yaşadığı coğrafi məkan-mahal və poetik irsinin toplanması və nəşri içərisindən onun obrazını ortaya çıxarmaq üçün üç mühüm mənbənin vacibliyi diqqət önündə saxlanıldı:

1. Təzkirə-mənqəbəvi əlyazmalarda az da olsa rast gəlinən məlumatlar – H.Qaradağinin “Təzkireyi-Qaradaği”si, Qasım Çələbinin orta çağlara bağlı olan əlyazma şəcərə kitabı və s.

2. Sarı Aşıqla bağlı olan xalq rəvayətləri və dastanın təqdim etdiyi bilgilər (B.Behcət, S.Mümtaz, Ə.Axundov, H.Kürdoğlu,

---

[10] Sarı Aşıq. Şeirlər / tərtib edəni və ön söz müəllifi Ə. Axundov. – Bakı: Azərnəşr, – 1966. – s. 3-4

İ.Qəhrəman, S.Rüstəmov, Vəli Nəbioğlu, Muxtar Kazımoğlu, Əfzələddin Əsgər, İlkin Rüstəmzadə, Ləman Vaqifqızı (Süleymanva) və başqalarının topladığı folklor örnəkləri).

3. Sarı Aşığın bayatılarında yer alan informativ-bioqrafik qalıntıların izləri.

Sarı Aşığın həyatı və mühiti, eləcə də, onun poetik irsinin toplanılması və öyrənilməsi tarixi haqqında bütün fikir və mülahizələrin yekununda bir xülasəni də ayrıca vurğulamaq vacibdir. Harada doğulduğundan və haradan gəldiyindən asılı olmayaraq, Sarı Aşıq öz yaradıcılığının bütün ruhu və koloriti ilə, bayatılarının ab-havası və poetik mündəricəsi ilə Azərbaycan bədii təfəkkürünün hadisəsidir və Zəngəzur mühitinin yetirməsidir. Bunu ustad aşığın bayatılarında tez-tez hallanan şəhər və kənd, dağ və çay adlarından tutmuş milli-etnik adət-ənənələrin bədii ifadəsinə qədər saysız-hesabsız poetik obraz və cizgilərdə asanlıqla müşahidə etmək mümkündür.

*Birinci fəslin "Sarı Aşıq yaradıcılığının poetik əhatə dairəsi" adlanan ikinci paraqrafında* göstərilir ki, Sarı Aşıq yaradıcılığının təşəkkülünə, inkişafına və çiçəklənməsinə ciddi təsir göstərən üç mühüm amili ayrıca qeyd etmək lazımdır:

Birincisi, "Dədə Qorqud"dan üzü bəri gələn oğuz-elat həyat tərzinin və türk mifik-poetik təfəkkür tərzinin izləri:

*Görükən Diri dağı,*
*Duman, gəl bürü dağı,*
*Ölüm qədərdir, Aşiq*
*Yamandır diri dağı*[11].

İkincisi, xalq şeirinin ən qədim və ən yayğın şəkillərindən olan Azərbaycan xalq bayatılarının Sarı Aşığa qədər yol gələn çoxəsrlik poetik ənənələri:

[11] Behcət, B. Sarı Aşığın bayatıları / transliterasiya və ön sözün müəllifi R. Xəlilov. – Bakı: Səda, – 2006. – s. 31-32

*Aşığa Bayat yaxşı,*
*Kölgədə ha yat, Yaxşı!*
*Canım oxuna qurban,*
*Oyanıb hey at, Yaxşı!*[12].

Üçüncüsü, Sarı Aşığın nakam məhəbbətinin və faciəli taleyinin folklorlaşan lirik əks-sədaları. Ruhu bu motivlərlə yoğrulmuş ustad aşıq bayatılarını şərti olaraq dörd yerə bölmək olar:

a) Yaxşıya dərin məhəbbətlə yoğrulmuş örnəklər;
b) Yaxşının hüsn-camalını tərənnüm edən nümunələr;
c) Ayrılıq səbəblərini və rəqibi ifşa edən örnəklər;
d) Yaxşının həsrətinə və ölümünə həsr olunmuş nümunələr.
e)

*Sənin süzgün gözlərin,*
*Qəmdən üzgün gözlərin.*
*Yaxşıdan doymaz, Aşıq,*
*Baxsa yüz gün gözlərin*[13].

*Aşığı el saxladı,*
*Sazını tel saxladı.*
*Gördü Yaxşı camalın,*
*Qanlılar əl saxladı*[14].

*Dolandım dağı, gəldim,*
*Dilimdə ağı gəldim.*
*Yaxşı Yaman əlindən*
*Dad qılan çağı gəldim*[15].

*Qarşımızda ya dağlar,*
*Ya düyünlər, ya dağlar.*

---

[12] Sarı Aşıq. Seçmə bayatılar / tərtib edəni və ön söz müəllifi H. Kürdoğlu. – Bakı: Sabah, – 1993. – s. 36
[13] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 33
[14] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 37
[15] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 35

*Aşıq, Yaxşı ölübdü,*
*Dost inildər, yad ağlar*[16].

**Dissertasiya işinin "Sarı Aşıq bayatı ustadı kimi" adlanan ikinci fəslində** sənətkarın bayatılarının ideya-estetik səciyyəsi, obraz sistemi, cinas fiqurları kimi məsələlərdən bəhs olunur.

*İkinci fəslin "Sarı Aşıq bayatılarının ideya-estetik səciyyəsi və obraz sistemi" adlanan birinci paraqrafında* deyilir ki, poeziyamızın tarixində Sarı Aşığa qədər də, Sarı Aşıqdan sonra da ilhamını və qələmini bayatı yaradıcılığında sınayan aşıq və şairlərimiz olmuşdur və sözügedən janrda gözəl nümunələr yaranmışdır. Ancaq onlardan heç birinin adı bayatı ilə bu qədər yaxından bağlanmamışdır və heç biri Sarı Aşığın fəth etdiyi bayatı zirvəsini fəth edə bilməmişdir[17].

Məzmun-mündəricə baxımından Sarı Aşıq bayatılarını əsasən dörd hissəyə ayırmaq olar:

a) Eşq-məhəbbət, vüsal və ayrılıq mövzusundakı örnəklər;
b) Təbiət tərənnümü ilə bağlı nümunələr;
c) El-oba dərdi və Vətən həsrəti ilə bağlı örnəklər;
d) İnsani əxlaq və başqa mənəvi dəyərləri əks etdirən nümunələr.

Bir çox hallarda bu mövzulardan birinin cizgiləri digərinin sərrast və təsirli ifadəsinə xidmət edir, yəni onlar bir-biri ilə əlaqəli şəkildə tərənnüm olunurlar[18].

Bu mövzuların içində aparıcı yeri, əlbəttə, sevgi və ayrılıq motivləri tutur:

*Aşığa yaz incə gül,*
*Açılıb yazınca gül.*

---

[16] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 38

[17] Fəsildə əldə edilmiş nəticələr üçün bax: Məmmədova, K. Sarı Aşıq bayatılarının obrazlar sistemi // – Bakı: Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2020. № 2(36), – cild 13. – s. 31

[18] Fəsildə əldə edilmiş nəticələr üçün bax: Məmmədova, K. Sarı Aşıq irsinin öyrənilməsi tarixindən // // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2019. – cild 10. – № 2(38), s.57-63

*Bülbül yüz ayə oxur*
*Bir əlif yazınca gül*[19].

Say cəhətdən böyük üstünlük təşkil edən eşq-məhəbbət mövzusundakı bayatılarda birinci yerdən fərqli olaraq, ikinci yeri ümumi məhəbbətə deyil, artıq ünvanlı sevgiyə və onun təlatümlü yaşantılarına həsr olunmuş nümunələr tutur:

*Yaz yerə xalı saldı,*
*Butası xalis aldı.*
*Aşığı qara günə*
*Yaxşının xalı saldı*[20].

Təbiət tərənnümü ilə bağlı bayatılar da Sarı Aşıq lirikasında özünəməxsus səciyyə daşıyır və kifayət qədər geniş yer tutur. Bəhlul Behcət "Sarı Aşığın bayatıları" kitabının mündəricatını aşağıdakı şəkildə tərtib etmişdi:

1. *Dağlar bayatısı*
2. *Avlar-quşlar bayatısı*
3. *Çaylar bayatısı*
4. *Yerlər və şəhərlər bayatısı*
5. *Sevgi və gözəllik bayatısı*[21].

Sarı Aşıq bayatıları arasında bir sıra nümunələr el-oba dərdi və Vətən həsrətinin təsirli poetik ifadəsindən ibarət olub, lirik qəhrəmanın yurd torpağına və Vətən təbiətinə dərin və sonsuz məhəbbətini ən səciyyəvi cizgilərlə və duyğulu yaşantılarla əbədiləşdirir:

---

[19] Sarı Aşıq. Seçmə bayatılar / tərtib edəni və ön söz müəllifi H. Kürdoğlu. – Bakı: Sabah, – 1993. – s. 70
[20] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 30
[21] Behcət, B. Sarı Aşığın bayatıları / transliterasiya və ön sözün müəllifi R. Xəlilov. – Bakı: Səda, – 2006. – 98 s.

*Mən Aşıq qalınca bağ,*
*Bar verməz qalınca bağ.*
*Viranə qalsa yeydir,*
*Düşmana qalınca bağ*[22].

Sarı Aşıq bayatılarının məzmun-mündəricə baxımından dördüncü bir qismi yüksək insani əxlaqı və mənəvi dəyərləri tərənnüm edən nümunələrdir:

*Aşığıyam dürüstün,*
*Dürüst iman, dürüst din.*
*Ya məclisdə lal otur,*
*Ya dinirsən, dürüst din*[23].

*İkinci fəslin "Bayatı yaradıcılığında cinas" adlanan ikinci paraqrafında* göstərilir ki, Sarı Aşığın adı çəkiləndə istər-istəməz ilk olaraq yadımıza onun yaratdığı cinas bayatı nümunələri gəlir.

İstər xalq şeirində, istər klassik poeziyada ən geniş yayılmış poetik sənətlərdən biri olan cinas "*şeirin qafiyələnən sözlərinin zahirən eyni olub, mənaca fərqlənməsidir*"[24].

Söz quruluşu və şəkli cəhətdən Sarı Aşıq cinaslarını üç qismə ayırmaq olar:

a) sadə cinaslar
b) mürəkkəb cinaslar
c) qanadlı cinaslar

Sadə cinaslar:

*Nə dağım, nə yazım var,*
*Nə lələk, nə yazım var.*
*Könlü yetim Aşığam,*

---

[22] Sarı Aşıq. Seçmə bayatılar / tərtib edəni və ön söz müəllifi H. Kürdoğlu. – Bakı: Sabah, – 1993. – s. 53
[23] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 76
[24] Qasımlı, M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri / M.Qasımlı, M.Allahmanlı – Bakı: Elm və təhsil, – 2018. – s. 75

*Nə qışım, nə yazım var*[25].
*Mürəkkəb cinaslar:*
*Aşığa oda dağlar,*
*Düşməsin oda dağlar.*
*Yaxşı yar sorağında*
*Eyləyər o dad, ağlar*[26].

Qanadlı cinaslar:

*Mən Aşığam Salyana,*
*Dara zülfün, sal yana.*
*Necəsən, bir ah çəkəm,*
*Kür quruya, sal yana*[27].

Ümumiyyətlə, poetik məharət baxımından Sarı Aşığın ən böyük uğuru bayatı kimi həcm baxımından yığcam bir janrın imkanları çərçivəsində cinas sənətini sənətkarlığın önəmli amilinə çevirməklə və cinaslı bayatının çoxsaylı gözəl nümunələrini yaratmaqla bayatı zirvəsini fəth etməsidir[28].

**Dissertasiya işinin "Xalq yaradıcılığında Sarı Aşıq obrazı" adlanan üçüncü fəslində** sənətkar haqqında xalq rəvayət və hekayətləri, o cümlədən "Yaxşı və Aşıq" dastanının janr özünəməxsusluğu və bədii xüsusiyyətləri araşdırılmışdır.

*Üçüncü fəslin "Sarı Aşıq haqqında xalq rəvayət və hekayətləri" adlanan birinci paraqrafında* bildirilir ki, xalq arasında öz sağlığında və özündən sonra belə əfsanələşmiş, rəvayətləşmiş və dastanlaşmış azman şəxsiyyətlərdən biri də el sənətkarı Sarı Aşıqdır.

---

[25] Sarı Aşıq. Seçmə bayatılar / tərtib edəni və ön söz müəllifi H. Kürdoğlu. – Bakı: Sabah, – 1993. – s. 55

[26] Sarı Aşıq. Seçmə bayatılar... Göstərilən nəşri, s. 29

[27] Sarı Aşıq. Gül dəftəri / toplayanı və tərtib edəni İ.Qəhrəman. – Bakı: Qanun, – 2018. – s. 40

[28] 105. Fəsildə əldə edilmiş nəticələr üçün bax: Məmmədova, K. Sarı Aşıq yaradıcılığının poetikası: cinaslı bayatılar // İnternational Black Sea Journal Social Sciences Sympozyum, – Baku: – 19-21 kasım, – 2019. – s. 19; Məmmədova, K. Sarı Aşığın cinas sənətkarlığı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. №1, – s.183

İstər Sarı Aşıq haqqında xalq rəvayət və hekayətləri, istər "Yaxşı və Aşıq" dastanı öz qısa məzmunu və ibrətli misalları ilə tədqiqatçıların və toplayıcıların diqqətini çoxdan çəkmiş olsa da, bayatılarından fərqli olaraq, onların toplanması və bir araya gəlməsi nisbətən son dövrlərin məhsuludur[29].

Sarı Aşıq haqqında əldə olan rəvayət və hekayətləri şərti olaraq mövzu və motivlərinə görə aşağıdakı kimi qruplaşdırmaq və təsnif etmək olar:

a) Sarı Aşığın Haqq aşığı və kəramət sahibi olmasını göstərən rəvayətlər və hekayətlər;

b) Sarı Aşığın Yaxşıya sevgisini əks etdirən örnəklər;

c) Sarı Aşığın şərə və haqsızlığa qarşı etirazını təcəssüm etdirən rəvayət və hekayətlər;

d) Sarı Aşığın doğumu və ölümü, yaşadığı ömür yolundakı gün-güzəranı ilə bağlı nümunələr;

e) Sarı Aşığın sirli-müəmmalı bayatılarını və onların yaranma səbəbini açıqlayan örnəklər[30].

*Üçüncü fəslin ""Yaxşı və Aşıq" dastanının janr özünəməxsusluğu və bədii xüsusiyyətləri" adlanan ikinci paraqrafında* göstərilir ki, yüzlərlə bənzərsiz bayatılarından sonra Sarı Aşığın adını və şöhrətini xalq arasında əbədiləşdirən və yaşadan

---

[29] Azərbaycan xalq dastanları / toplayanı və tərtib edəni Ə. Axundov. – Bakı: Yazıçı, – 1983. – 252 s.; Sarı Aşıq / toplayanı və tərtib edəni Məhəmməd İbadi Qaraxanlı – Alışıq. – Təbriz: Əxtər, – 2007. – 120 s.; Aşıq rəvayətləri. Sarı Aşıq // Qarabağ: folklor da bir tarixdir. – I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edənlər: fil.ü.f.d. İlkin Rüstəmzadə, Zəfər Fərhadov, – Bakı: Elm və təhsil, – 2012. – s. 146-148; Aşıq rəvayətləri. Sarı Aşıq // Qarabağ: folklor da bir tarixdir. – IV kitab (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor materialları). Toplayanlar: fil.ü.f.d. İlkin Rüstəmzadə, Sevinc Bağdadova. Tərtibçi: fil.ü.f.d. İlkin Rüstəmzadə, – Bakı: Elm və təhsil, – 2013. – s. 360-375; Aşıq rəvayətləri. Sarı Aşıq // Qarabağ: folklor da bir tarixdir. – VI kitab (Cəbrayıl, Kəlbəcər, Tərtər rayonlarından toplanmış folklor örnəkləri).Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova), – Bakı: Elm və təhsil, – 2013. – s. 302-303; Sarı Aşıq. Gül dəftəri / toplayanı və tərtib edəni İ.Qəhrəman. – Bakı: Qanun, – 2018. – s. 247-264

[30]Fəsildə əldə edilmiş nəticələr üçün bax: Məmmədova, K. Sarı Aşıq haqqında xalq rəvayət və hekayətləri // – Bakı: Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2020. № 1(35), – cild 12. – s.40

örnəklər onun haqqındakı xalq rəvayətləri və hekayətləri, xüsusən, “Yaxşı və Aşıq” dastanı olmuşdur. Bu məhəbbət dastanının sonradan-sonraya yazıya alınıb çağdaş oxucular arasında məşhurlaşmasına baxmayaraq, onun el arasında ilk variantlarının təxminən Sarı Aşığın sağlığından etibarən yaranması ehtimalı daha inandırıcı görünür.

“Yaxşı və Aşıq” dastanını üzə çıxaran, el ağzından toplayıb ilk dəfə nəşr edən ustad folklorçu Ə.Axundovdur[31]. Bu kitaba yazılan adsız ön söz isə onun Sarı Aşıq irsinin tədqiqi sahəsindəki ilk işi hesab olunur.

Fikrimizcə, “Aşıq və Yaxşı” bayatılı dastanı dastan-rəvavət tipinə aiddir. Dastan bayatı ustasının özü tərəfindən deyil, Sarı Aşıq haqqında el arasında gəzən rəvayətlər əsasında qoşulmuşdur. “Yaxşı və Aşıq” dastanının nə zaman meydana gəlməsi barədə isə onu söyləmək olar ki, təbii ki, Sarı Aşığın zamanında onun başına gələn əhvalatlar rəvayətləri formalaşdırmış, həmin rəvayətlər el arasında yaşamış, və dastan XVII əsrdə deyil, çox sonralar həmin rəvayətlərin toplanması sayəsində meydana gəlmişdir. Sarı Aşığın ilk tədqiqatçıları S.Mümtaz, B.Behcət, H.Araslı və b. elmi tədqiqatlarında həmin dastanın mövcudluğu barədə bir kəlmə belə söylənilməməsi də dediklərimizi təsdiqləmiş olur[32].

Dastan başqa məhəbbət dastanlarında olduğu kimi, ənənəvi ustadnamələrlə başlayır. Amma əksər dastanlardakı ustadnamələrdən fərqli olaraq, “Yaxşı və Aşıq” dastanında bu ustadnamələr başqa poetik şəkildə, deyək ki, qoşma şəklində deyil, məhz bayatı formasında ifadə olunur:

*Aşıq yarıdan keçər,*
*Gecə yarıdan keçər.*

[31] Sarı Aşıq. Şeirlər / tərtib edəni və ön söz müəllifi Ə. Axundov. – Bakı: Azərnəşr, – 1966. – 90 s.

[32] Fəsildə əldə edilmiş nəticələr üçün bax: Mammadova, K. Sari Aşik ve “Yahşi ve Aşik” hikayesi hakkinda mülahazalar // Uluslararasi Mersin Sempozyumu International Mersin Symposium (October 31 – November 2, 2019)31 Ekim - 2 Kasım 2019, - s. 138-139

*Namərdlə dost olanın,*
*Ömrü yarıdan keçər...*[33]

"Yaxşı və Aşıq" dastanında qəhərmanın doğuluşu sitatdakı ikinci sıradan olan qəhrəmanların dünyaya göz açmasına yaxındır. Amma burada da bir özünəməxsusluq var. Övladı olmayan Qara İbrahimi "Allah payı" hər hansı nəzir-niyazdan, yaxud qurban verməkdən sonra deyil, övlad diləyində yaşadığı mahaldan ayrılıb, Həkərinin gündoğanında yeni yurd saldıqdan sonra verilir[34].

Bundan sonra süjet xəttində buta almaq hadisəsi gəlir. Məhəbbət dastanlarındakı ənənəvi süjet xəttinin növbəti mərhələsini, buta yolunda qarşıya çıxan əngəllər və qara qüvvələrlə mübarizə təşkil edir. "Yaxşı və Aşıq" dastanında bu qüvvələrin təmsilçiləri ilk öncə Yaxşının qardaşları olur.

Rəqiblərin Haqq aşığını və öz doğma bacısını təqiblərə və təzyiqlərə məruz qoyub, onların məhəbbəti və bəxti yolunda quyu qazmağı onları bir-birindən ayırana qədər, yəni Yaxşının ölümünə qədər davam edir:

*Mən Aşıq yaman bəla,*
*Qoy gəlsin yaman bəla.*
*Rəvadı Yaxşı ölə,*
*Yerində Yaman qala?*[35]

Xeyirin şər üzərində, haqq-ədalətin zülm və haqsızlıq üzərində qələbəsini göstərən bu səhnə həm də süjet poetikası baxımından məhəbbət dastanlarına xas sonuncu mərhələnin (sınqadan çıxma və qələbə) bir göstəricisi kimi səciyyəvidir. Buna qədər Aşığın öz butasına yetmək yolunda və öz sevgisi uğrunda keçdiyi bütün sınaqlar və başına gələn bütün əhvalatlar (Yaman tərəfindən murovun cibinə basılan rüşvət hesabına dönə-dönə İsfahana və Kaşana sürgün olunması, qürbətdən bir göz yumub-açınca dəfələrlə

---

[33] Azərbaycan xalq dastanları / toplayanı və tərtib edəni Ə. Axundov. – Bakı: Yazıçı, – 1983. – s. 135
[34] Yaxşı və Aşıq // Azərbaycan xalq dastanları. – Bakı: Yazıçı, – 1983. – s. 136
[35] Yaxşı və Aşıq... Göstərilən nəşri, s. 165

Yaxşının görüşünə gəlməsi, Haqq aşığı kimi çətin imtahanlardan uğurlu çıxması və s. və i.a.) sözügedən mərhələnin "Yaxşı və Aşıq" dastanında kifayət qədər ciddi rola malik olduğunu göstərir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aşağıdakı nəticələr ümumiləşdirilir:

1. Sarı Aşıq, bir tərəfdən, özünə qədərki görkəmli söz sənətkarlarının böyük ənənələrini davam etdirməklə və zənginləşdirməklə, digər tərəfdən, özündən sonrakı aşıq poeziyasının inkişafına güclü və səmərəli təsir göstərmişdir.

2. Həyatı və mühiti haqqında tarixi mənbələrdə məlumatların az olmasına baxmayaraq, keçən əsrin 20-ci illərindən tutmuş bu günə qədər Sarı Aşığın irsinə dair toplayıcılıq işləri və yaradıcılığına aid tədqiqat işləri Azərbaycan folklorşünaslığında Sarı aşıqşünaslıq sahəsinin formalaşmaqda olduğunu göstərir.

3. Sarı Aşığın harada doğulduğu və haradan gəldiyi haqda mübahisələr tam şəkildə öz həllini tapmasa da, onun öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına mənsubluğu və əsasən (Qarabağ aşıq mühitinin yetirməsi olduğu şübhə doğurmur. Bunun ən parlaq və danılmaz izləri ustad aşığın bayatılarında və haqqındakı rəvayət və hekayətlərdə bol-bol işlənən tarixi-coğrafi adlarda nəzərə çarpır.

4. Sarı Aşığın doğulduğu və vəfat etdiyi illər dəqiq məlum olmasa da, özü, məsləkdaşları və müasirləri haqqında görkəmli foklorşünas və toplayıcı Bəhlul Behcətin təqdim etdiyi fakt və dəlillər ustad el sənətkarının əsasən XVII əsrdə yaşayıb-yaratdığını və təqribən səksən il ömür sürdüyünü açıq-aşkar göstərir.

5. Sarı Aşığın bayatını öz yaradıcılığının əsas janrı kimi seçməsinin səbəbləri, bir tərəfdən, bayatının potensialında cinas sənətini inkişaf etdirmək və çiçəkləndirmək üçün böyük və əlverişli imkanların olmasında idisə, digər tərəfdən, ana dilinin zənginliyini və gözəlliyini nümayiş etdirmək üçün bayatının ən yığcam və ən yayğın vasitə sayılmasında idi.

6. Cinaslı qafiyəni yüksək sənət dərəcəsinə qaldırmaqla və cinasın müxtəlif növlərini yaratmaqla Sarı Aşıq həm bayatı poetikasını, həm qafiyə texnikasını böyük yeniliklərlə zənginləşdirdi. Cinaslı bayatının bənzərsiz ustadı kimi məşhurlaşan Sarı Aşıq, eyni zamanda, cinas sənətindəki böyük məharəti və uğurları ilə öz

xələflərinin yaradıcılığına ciddi təsir göstərmişdir.

7. Hərtərəfli müşahidələr və müqayisələr, bir tərəfdən, Sarı Aşığın bayatı yaradıcılığının əsasən cinaslı nümunələrdən ibarət olduğunu təsdiqləyirsə, ikinci tərəfdən, xalq bayatıları ilə ustad aşıq bayatıları ortasındakı sərhədləri, eləcə də, mübahisəli örnəklərin müəllifini müəyyənləşdirməkdə bütün başqa amillərin əhəmiyyətini azaltmadan ən ciddi və aparıcı rolun daha çox fərdi təxəyyülün və fərdi məharətin məhsulu sayılan cinas sənətinə və cinaslı qafiyəyə mənsubluğunu üzə çıxarır.

8. Sarı Aşıq poetik irsinin, o cümlədən, bayatılarının məzmun və forma birliyi, eləcə də, ideyalar və obrazlar aləmi üzərində aparılan təhlillər və müşahidələr Sarı Aşıq lirikasının əsas və köməkçi obrazlarının (Aşığın özünü təmsil edən lirik "mən", Yaxşı, Yaman, gül, bülbül, ay, günəş, dağ, bağ və s.) Haqq aşığının öz keşməkeşli taleyindən və nakam sevgisindən qaynaqlandığını və öz yeni poetik çalarları ilə, dərin və təsirli bədii ifadəsi ilə bütövlükdə aşıq poeziyası xəzinəsini zənginləşdirdiyini göstərir.

9. İlk dəfə geniş tədqiqata cəlb olunan Sarı Aşıq haqqında xalq rəvayətləri və hekayətləri, bir tərəfdən, Haqq aşığının el arasındakı nüfuzunu və el təxəyyülündəki obrazını nümayiş etdirirsə, digər tərəfdən, Sarı Aşığın bir çox bayatılarının "yurd yeri"ndən və başqa sirli-müəmmalı mətləblərindən xəbər verir.

10. "Yaxşı və Aşıq" dastanı, bir tərəfdən, Azərbaycan aşıq ədəbiyyatında ustad aşıqların adları ilə bağlı olan məhəbbət dastanlarının ("Şah İsmayıl – Gülzar", "Qurbani", "Abbas – Gülgəz", "Xəstə Qasım və Mələksima") sırasını, digər tərəfdən, Azərbaycan folklorunun əbədiləşdirdiyi aşıq obrazları qalareyasını zənginləşdirən bədiilik nümunəsidir.

## DİSSERTASİYANIN ƏSAS NƏTİCƏLƏRİ MÜƏLLİFİN AŞAĞIDAKI MƏQALƏLƏRİNDƏ ƏKS OLUNMUŞDUR:

1. Prof. Sədnik Paşayevin tədqiqatlarında Sarı Aşıq // – Bakı: Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti, – 2018. № 1(109), – s. 296-298.
2. Sarı Aşıq irsinin öyrənilməsi tarixindən // // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2019. – cild 10. – № 2(38), s.57-63
3. Sarı Aşıq yaradıcılığının poetikası: cinaslı bayatılar // İnternational Black Sea Journal Social Sciences Sympozyum, – Baku: – 19-21 Kasım, – 2019. – s. 19-26
4. Sarı Aşığın cinas sənətkarlığı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. №1, – s.183-188
5. Sarı Aşik: Adı ve Mahlasiyla İlgili Tartışmalar // 2.Uluslararası Dergi Karadeniz Sosyal Bilimler Sempozyumu. 21-23 Haziran 2019, Giresun – Türkiye, s. 51-56
6. Sarı Aşik`in Türkiye Araştırmaları: "Azerbaycan Yurt Bilgisi" Dergisi // 2nd İnternational Conference of Language, Education and Culture (İCLEC), Medipol University, 27-29 Haziran 2019, İstanbul – Türkiye, s. 128-129
7. Behlül Behçet Sarı Aşik Manilerinin Derleyicisi ve Araştirmacisi Olarak / V.TURKCESS Uluslararası Eğitim ve Sosyal Bilimler Kongresi, Yildiz Teknik Universitesi, 27-29 haziran 2019, s.2114- 2123
8. Sari Aşik ve "Yahşi ve Aşik" Hikayesi Hakkinda Mülahazalar // 3. International Mersin Symposium (October 31 – November 2, 2019), Mersin, s. 138-139
9. О поэтическом наследии Сары Ашуга // Вестник Казахского Национального Университета им.Аль-Фараби, серия филологическая, 2020, № 12, с. 58-66
10. Sarı Aşıq haqqında xalq rəvayət və hekayətləri // – Bakı: Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2020. № 1(35), – cild 12. – s.39-43.
11. Sarı Aşıq bayatılarının obrazlar sistemi // – Bakı: Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat

İnstitutu, – 2020. № 2(36), – cild 13. – s.89-93
12. Aşık edebiyyatında Sarı Aşıkın folklorlaşan heyatı ve poetik irsinin menzeresi / Uluslararası Türk dünyası Sempozyumu, Erzincan, Binalı Yıldırım Universiteti, 9-12 ekim 2022.-s.158-160
13. Sarı Aşığın poetik irsinin səciyyəvi xüsusiyyətləri / IX. TURKCESS Uluslararası Eğitim ve Sosyal Bilimler Kongresi, Yıldız Teknik Universiteti, 18-20 may 2023. -s.387-390

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2025-ci il tarixində saat 12.00 AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası AR Prezidenti yanında AAK-ın və AMEA Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:25.09. 2025

Kağızın formatı: A5

Həcm: 38393 işarə

Tiraj: 100